# Əbədiyyətdəki əziz ünvanlarımız - Şəhidlər ölməz, Vətən bölünməz!



Ramiz Qasımov



Rəhim Hüseynov



Xaliddin Veyisli

*Həyat nə qədər şirin olsa da, ölüm heç bir insan övladının qaça bilməyəcəyi tale yazısıdır. Amma Allah qatında seçilmiş elə insanlar var ki, onlar ölmür, cismən bu dünyanı tərk edib, ruhən Yaradana - əbədiyyətə qovuşurlar. Ölümlərin ən şərəflisi də deyirlər buna. Bu, müqəddəs şəhidlik zirvəsidir ki, hər kəsə qismət olmaz.*

**Əvvəli ötən sayımızda**

Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə sentyabr ayında başlanan və 44 gün davam edən Vətən müharibəmiz 30 ilə yaxın erməni işğalında olan torpaqlarımızın, Qarabağın azadlığıyla nəticələndi.

Müharibə varsa, şəhid də var, qazi də, itkin də... Nə yazıq ki, bu müharibəmiz də qurbanlarsız ötüşmədi. Azərbaycanın üç minə yaxın qəhrəmanı torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucaldı, minlərlə igid qazi adını qazandı. "525-ci qəzet" olaraq bu layihəmizdə mütəmadi şəkildə hissə-hissə həmin igidlərimizi oxucularımıza tanıtdıracağıq. Hər biri bir qəhrəmanlıq dastanı olan bu həyatlarla qürur duyur, onları unutmayacağımıza, unutdurmayacağımıza söz veririk! Allah hər birinə rəhmət eləsin!

**İmran İlqar oğlu Qurbanov** 23 may 1989-cu ildə Bakı şəhərində, Sabunçu rayonunun Ramana qəsəbəsində dünyaya göz açıb. 1996-cı ildə Sabunçu rayon Fikrət Tağıyev adına riyaziyyat təmayüllü 72 saylı liseyə daxil olub. 2003-cü ildə isə Cəmşid Naxçıvanski adına hərbi liseyə qəbul olub. 2006-2010-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. 2010-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin Təlim Tədris Mərkəzində təhsilini davam etdirib. 2011-ci ildə Təlim Tədris Mərkəzini bitirən İmran leytenant rütbəsi alaraq Füzuli rayonunda taqım komandiri vəzifəsi ilə hərbi xidmətinə başlayıb. 9 il orada xidmət etdikdən sonra Beyləqanda tabor komandirinin müavini kimi xidmətini davam etdirib. Hərbi xidmət müddətində "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" medalları ilə təltif edilib.

Azərbaycan Ordusunun kapitanı olan İmran Qurbanov 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsinin də iştirakçısı olub. 29 sentyabr 2020-ci ildə Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. II Şəhidlər xiyabanında torpağa tapşırılıb.

İmran Qurbanov şəhadətindən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

**Rəhim Qədir oğlu Hüseynov** 1984-cü il iyulun 1-də Zərdab rayonunda anadan olub. 1998-2001-ci illərdə Cəmşid Naxçıvanski adına hərbi liseydə təhsil alıb. 2001-2005-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ali hərbi təhsil alıb. 2005-2006-cı illərdə isə Silahlı qüvvələrin təlim və tədris mərkəzində təhsil alıb.

İngilis, rus, erməni dillərini mükəmməl bilirdi.

Şəhid mayor Rəhim Hüseynov Azərbaycan Silahlı Qüvvələrinin tərkibində NATO-ya bəyan edilmiş və dəfələrlə götürdüyü öhdəliyi müvəffəqiyyətlə yerinə yetirmiş Əməliyyat İmkanları Konsepsiyası (OCC Bn) taborunun komandiri idi.

2020-ci ildə NATO-nun Əfqanıstan İslam Respublikasında Qətiyyətli Dəstək - qeyri-döyüş missiyasında Azərbaycan sülhməramlı kontingentinin və eyni zamanda, Həmid Karzai Beynəlxalq Hava Limanının (HKIA) Qüvvə Qorunması taborunun komandiri vəzifəsində NATO Meritorious Service Medalı (NATO-nun ləyaqətli xidmət medalı) ilə təltif olunan ilk və tək azərbaycanlı zabitdir.

O, xidmət müddəti ərzində NATO təlimləri və kursları çərçivəsində dünyanın müxtəlif ölkələrində Azərbaycan Silahlı Qüvvələrini layiqli şəkildə təmsil edib, Azərbaycan bayrağını şərəflə daşıyıb.

Azərbaycan Ordusunun mayoru olan Rəhim Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 20-də Qubadlı döyüşləri zamanı şəhid olub. II Fəxri xiyabanda dəfn olunub.

Ailəli olan şəhidimizin 3 övladı yadigar qaldı.

Rəhim Hüseynov şəhadətindən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

**Ramiz Vaqif oğlu Qasımov** 1975-ci il fevralın 17-də Beyləqanda doğulub. 1981-1992-ci illərdə Beyləqanda 4 nömrəli tam orta məktəbində, 1992-1997-ci illərdə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbində ali təhsil alıb.

1992-ci ildən Azərbaycan Hərbi Hava Qüvvələrinin Xəzər rayonu ərazisində yerləşən Qala aviabazasında xidmət edirdi. Azərbaycan Hərbi Hava Qüvvələrinin arsenalında olan bütün tip vertolyotlarda uçuşlar etmişdi.

2020-ci il iyul ayındakı Tovuz döyüşlərində igidliklə döyüşüb. Ermənistan Ordusunun dayaq məntəqələrinə və canlı qüvvələrinə zərbələr, məhz R.Qasımovun idarə etdiyi "Mi-17" döyüş vertolyotu tərəfindən endirilib.

Azərbaycan Hərbi Hava Qüvvələrinin polkovnik-leytenantı olan Ramiz Qasımov Vətən müharibəsi zamanı "SPAYK" uzunmənzilli raketlərilə silahlanan "Mi-17" vertolyotunun heyətində Madagiz və Talış istiqamətlərində Ermənistan Ordusunun hərbi hədəflərini məhv edib.

Ramiz Qasımovun rəhbərliyi altında "Mi-17" hücum vertolyotu ilə "Dağlıq Qarabağ" separatçı rejiminin Müdafiə Ordusunun arsenalında olan üç ədəd "9K33 OSA" ZRK məhv edilib və qarşı tərəfə ümumi olaraq 31 milyon dollar məbləğində ziyan dəyib.

Azərbaycan Hərbi Hava Qüvvələrinin "Rəşadət" ordenli zabiti Coşqun Rüstəmovun sözlərinə görə, R.Qasımov idarə etdiyi "SPAYK" uzun mənzilli raketlərilə silanlanan "Mi-17" hücum vertolyotu ilə cəbhənin Tərtər-Madagiz-Talış istiqamətlərində Ermənistan Ordusunun strateji əhəmiyyətli hədəflərini məhv eləmişdi. Onun idarə etdiyi "Mi-17" hücum vertolyotu təyin olunan vaxtdan 20 dəqiqə tez havaya qalxıb. Hava hücumu zamanı "SPAYK" uzun mənzilli raketlərilə Ermənistan Hərbi Hava Qüvvələrinin Hava Hücumundan Müdafiə Qoşunlarının (HHM) üç ədəd "OSA" ZRK və bir ədəd Repellent "P-19" Radiolocation stansiyası dəqiq atəş zərbələri ilə məhv edilib.

Onun rəhbərliyi altında məhv edilən dörd qurğudan üçü motoatıcı diviziyanı və başqa qüvvələri aşağıdan uçan hava hücum silahlarından qoruyan "9K33 OSA" özüyeriyən Zenit Raket Kompleksidir. Bu qurğuların məhv edilməsi, Tərtər-Madagiz-Talış istiqamətlərində Azərbaycan Ordusunun artilleriya üstünlüyünə sahib olmasına şərait yaratmışdı.

R.Qasımovun rəhbərliyi altında məhv edilən 4-cü qurğu isə Rusiya istehsalı olan Repellent "P-19" radiolokasiya stansiyasıdır. Həmin qurğu uzaq məsafədən Pilotsuz Uçuş Aparatlarının (PUA) idarəetməsini ələ alır, onun iş rejimini pozur və məhvinə səbəb olur. Müharibə zamanı Azərbaycan Ordusunun arsenalında olan PUA-dan geniş istifadə olunduğunu nəzərə almaqla həmin qurğuların məhv edilməsi önəmli hədəflərdən biri idi.

Sentyabrın 27-də səhər saatlarında Hərbi hədəflərin məhv edilməsindən sonra R.Qasımovun idarə etdiyi "Mi-17" hücum vertolyotu aviabazaya geri dönür. Vertolyot Tərtərin Azad Qaraqoyunlu istiqamətində olan zaman Ermənistan HHM bölmələri tərəfindən vurulur. Nəticədə vertolyot sürətlə hündürlüyünü itirməyə başlayır. R.Qasımov dərhal bortda olan digər 2 nəfər heyət üzvünə vertolyotdan "atılma" əmrini verir. Özü isə "Mi-17" hücum vertolyotunun 1500 nəfərin yaşadığı Azad Qaraqoyunluda yaşayış evlərinə düşməməsi üçün sürətlə hündürlüyünü itirən vertolyotu xüsusi ustalıqla boş sahəyə tərəf istiqamətləndirməyə başlayır və bunu bacarır. O, son anda paraşütlə vertolyotdan atılsa da, başından ağır zərbə alaraq əvvəlcə Bərdə Rayon Xəstəxanasına, sonra isə Silahlı Qüvvələrin Baş Hospitalına aparılır. Koma vəziyyətində 25 gün qalandan sonra oktyabrın 22-də şəhid olur. Qəhrəman pilot II Şəhidlər xiyabanında dəfn edilib.

Günel Qasımova adlı xanımla ailəli olan şəhidimizin Gülanə və Gülay adında qızları, Vaqif adında isə oğlu yadigar qalıb.

Ramiz Qasımova şəhadətindən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib. Həmçinin, o, "Vətən uğrunda" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edilib.

**Xaliddin Zəkər oğlu Veyisli** 1981-ci il sentyabrın 14-də Qazax şəhərində anadan olub.1987-1998-ci illərdə S.Əfəndiyev adına 1 nömrəli tam orta məktəbdə təhsil alıb.

Xaliddin Veyisli 1999-2001-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2008-ci ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun çavuşu olan Xaliddin Veyisli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xaliddin Veyisli oktyabrın 26-da Füzuli döyüşləri zamanı şəhid olub. Qazax şəhərində dəfn olunub.

Ailəli olan şəhidimizin Vətənə və bu xalqa əmanət bir qızı və bir oğlu qaldı.

Xaliddin Veyisli şəhadətindən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

**Şahanə MÜŞFİQ**